UOT 902

HƏQİQƏT MEHDİYEVA
Bakı Dövlət Universiteti, Qazax filialının əməkdaşı
heqiqet.mehdiyeva.91@mail.ru

İNDİRA VƏLİYEVA
Bakı Dövlət Universiteti, Qazax filialının əməkdaşı, Əməkdar müəllim
indirasemedova7@gmail.com

GÖYÇƏ GÖLÜ ƏTRAFININ ERKƏN TUNC DÖVRÜ ARXEOLOJİ ABİDƏLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/105/208-211

Məqalədə Göyçə gölü ətrafının arxeoloji tədqiqi və bu tədqiqat nəticəsində əldə edilmiş qazıntı materiallarından qeyd edilmişdir. Hətta Göyçə gölü ətrafındakı arxeoloji abidələr barəsində şərh edilmişdir. Burada mövcud olan qəbir abidələri, yaşayış yerləri araşdırılmışdır.

Açar sözlər: Göyçə gölü, qəbirlər, yaşayış yerləri, Şenqavit, Qərbi Azərbaycan.

Giriş. Ararat vadisində Kür-Araz mədəniyyəti dövrü abidələrinin sayı 30-dan artıqdır. Onların içərisində Razdan çayının sol sahilində yerləşən 6 ha sahəni əhatə edən Şenqavit yaşayış yeri daha ətraflı tədqiq olunub. Onun 4 mədəni təbəqəsinin biri eneolit dövrünə aid olsa da, digər üç təbəqə erkən tunc dövrünü təmsil edir. Bütün təbəqələrdən diametri 5-7,5 m olan dairəvi quruluşlu yaşayış evləri və düzbucaqlı təsərrüfat tikililəri aşkar olunmuşdur. Yaşayış yerinin radiokarbon analizi nəticəsində 4020+ - 80 il tarixinə aid olduğu bildirilir. Kollektiv dəfnli qəbir abidələri erkən tunc dövrünün əvvəllərinə aid edilir [2, s.68-69].

Digər böyük ölçülü yaşayış yeri Möhrə-Blur 3,5 ha sahəni əhatə edir, 10 m mədəni təbəqəsinin alt horizontlarında erkən tunc dövrünə aid keramika, ayin əşyaları, obsidiandan düzəldilmiş alətlər əldə olunmuşdur. Onun yaxınlığındakı Norabats (Yengicə) və Craovit abidələri uzunmüddətli məskənlərdən hesab olunur. II və III Şaqlama yaşayış yerləri isə Debed (Tona) çayının sahilində, Ayrım (Ayrım Polad) kəndi yaxınlığında yerləşir [1, s.57-59].

Qərbi Azərbaycanın Kür-Araz mədəniyyəti məskənlərinin əksəriyyəti onların yerləşmə mövqeyindən asılı olmayaraq, kiçik ölçülüdür və 5-6 ha qədər sahəni əhatə edir. Şenqavitlə yanaşı, nisbətən kiçik hesab olunan Şreş-Blur, Kül-Təpə, Mahal-təpə, Qara-təpə, Metsamor(Qəmərli), Araqats (Alagöz) yaşayış yerləri də müdafiə hasarları ilə əhatə olunmuşdur. Lakin bütün məskənlər, adətən, əkinçilik və maldarlıq üçün əlverişli olan ərazilərdə salınmışdır. Məskənlərin bir çoxunda zəngin mədəni layların aşkar edilməsi onların oturaq xarakterindən xəbər verir. Erkən tunc dövründə təkcə məskənlərə bitişik sahələr deyil, xeyli aralı torpaqlar da əkin üçün istifadə olunmuşdur. Maldar təsərrüfatın genişlənməsi ilə əlaqədar dağlıq və yüksək dağətəyi rayonların məskunlaşması da başlanır [2, s.69]. III minilliyin ortalarında Ararat əhalisinin bir qismi Qeqam dağı istiqamətinə köçərək, dağlıq bölgələrdə yaşamağa başlayırlar. Bu isə Takavoranist, Kosi-Çoter, Qarni(Gərni), Kirgi, Cucevan, Ayrım (Ayrım Polad) və digər məskənlərin sakinlərinin maddi mədəniyyətində bənzərliklərin yaranmasına səbəb olmuşdur [1, s.59]. Qarni (Gərni) yaşayış yeri Qeqam dağının ətəyində, dəniz səviyyəsindən 1400 m hündürlükdə, Elar yaşayış yeri və qəbir abidəsi isə İrəvandan şimalda yerləşmişdir, buradan da dairəvi evlər və 10 böyük ölçülü quyu aşkar olunmuşdur. Ehtimal ki, bu quyu taxıl saxlanılması üçün nəzərdə tutulmuşdu. Buradan təsərrüfat quyusu ilə yanaşı müxtəlif növ buğda və arpa qalıqları olan taxıl anbarı, həmçinin çoxlu sayda gil, daş, sümük əşyalar və s. aşkar edilmişdir. Əmək alətləri toxalar, çaxmaqdaşı içlikləri, dənüyüdənlər, sürtkəclər, həvəngdəstələr və b. ilə təmsil olunub. Aşkar edilmiş osteoloji material əsasən ev heyvanlarının sümüklərindən ibarətdir [2, s.72].

Müdafiə xarakterli hasarların geniş yayılması son tunc dövrünə aid edilsə də, Axtamir, Müxənnət-təpə və Takavoranist yaşayış yerlərində də qeydə alınmışdır [2, s.97]. Erkən tunc dövrü abidələrinin metal məmulatı içərisində Şenqavitdən iki biz, bir neçə kiçik yastı düymələr, Qarnidən (Gərni)

oraq, Karazdan külüng və iki xəncər tiyəsi, oraq, Elardan dörd ədəd xəncər tiyəsi tapılmışdır [2, s.116].

Qərbi Azərbaycanın ilk tunc dövrü yaşayış yerlərindən tapılan taxıl nümunələri içərisində bərk və yumşaq buğda, arpa, darı növünə daxil olan bitki xüsusi yer tutur. Məlumdur ki, bərk buğda növünün müxtəlif formaları qədim əkinçi icmaların əkinçilik təsərrüfatında mühüm rol oynamışdır. Bərk buğda növünə aid dən qalıqlarının məhz Cənubi Qafqazın ən qədim əkinçi yaşayış yerlərindən tapılmasına və bu ərazidə hal-hazırda da onun yabanı formasının qalmasına əsasən güman etmək mümkündür ki, bərk buğdanın da ilk vətənlərindən biri Qafqaz ərazisi olmuşdur. İlk tunc dövru yaşayış yerlərinin qədim sakinlərinə müxtəlif tip qabıqlı arpanın kultivasiyası da yaxşı məlum olmuşdur. Bununla belə şübhə yoxdur ki, bu dövrdə əkinçilik təsərrüfatı təkcə dənli bitkilər istehsalı ilə məhdudlaşmamışdır. Bəzi tədqiqatçıların fikrincə məhz ilk tunc dövründə burada əkinçilikdə yeni bir sahə-kətançılıq təşəkkül tapmışdır [2, s.105-106].

Bu dövrdə metalişləmənin izlərinə nisbətən az da olsa Şenqavit yaşayış yerində rast gəlinmişdir. Martirosyan qeyd edir ki, Ermənistan ərazisində nə əritmə sobaları, nə də metalişləmə ilə bağlı hər hansı qalıqlar tapılmamışdır [3, s.25]. Şenqavitdən ağ əhəndaşından hazırlanmış qəlib tapılmışdır ki, bu da çox yəqin ki, metalın əridilməsi ilə bağlı olmuşdur. Tapılan qəlibdən balta hazırlanmasında istifadə olunmuşdur. Maraqlıdır ki, qəlibin və baltanın formasını təsvir edən Martirosyan Ermənistan ərazisində belə baltaların analoqunun olmamasını da bildirir. Nisbətən oxşar tapıntının Artsev rayonundan, Yalbuza yaşayış yerindən qeydə alındığını yazır [3, s.25]. Sonradan balta qalıqlarına E.V. Xanzadyanın qazıntıları nəticəsində Qarnidə(Gərni) də rast gəlinmişdir [3, s.27].

1935-ci ildə Kirovakan (Böyük Qarakilsə) qəbristanlığından 4 saylı qəbirdən nizə qalıqları tapılmışdır. Qeyd edək ki, erkən tunc dövrü abidələrindən mis alətlərin qeydə alınması mümkün haldır. Buradan eyni zamanda saxsı qab nümunələri də aşkar olunmuşdur ki, oxşar qablar Lori-berd və Alaverdi rayonlarında da qeydə alınmışdır. Martirosyan Ermənistan ərazisində anoloji tapıntılar olmadığını bildirsə də, bu ərazilərin tarixi Azərbaycan torpaqları olduğunu etiraf etməkdənsə, mövcud məmulatı Gürcüstan ərazisinin maddi mədəniyyət nümunələri ilə müqayisə etməyə cəhd göstərir [3,s.31].

Şenqavit yaşayış yerindən sonra burada Elar abidəsinin olmasını xüsusi vurğulayaraq, təsərrüfat və sənətkarlığın sonrakı inkişafının məhz Elar yaşayış yerində davam etdiyini göstərməyə çalışır və bunun üçün B.B.Piotrovskiyə istinad etməklə fikrini əsaslandırmağa cəhd edir [4,s.36]. E.Lalayan tərəfindən qoyulan şurfa görə, buradan bir-birindən 1-2 m aralıda yerləşən təsərrüfat quyuları aşkar olunmuşdur. İribuynuzlu heyvanların sümük qalıqlarının azalması və xırdabuynuzluları üstünlük təşkil etməsi burada maldarlığın yarımköçmə forması aldığını göstərir ki, bununla da yaşayış yerinin sahəsi genişlənir [3, 34]. Qayıqşəkilli dən daşlarının, həvəgdəstələrin, sümük bizlərin çox sayda tapılması burada maldar-əkinçi təsərrüfatlarının inkişafını göstərir. Erkən tunc dövrünə aid dən daşlarının eneolit dövrüdən daşlarındanmüəyyən qədər fərqləndiyiaydın şəkildə gözə çarpır. Belə ki, əgər eneolit dövründə dən daşlarının alt və üst hissələri əsasən qeyri-simmetrik formalarda təmsil olunduğu halda, erkən tunc dövründə bu cür alətlər artıq tam yetkin formalara malikdirlər. Onların alt hissələri bir qayda olaraq küncləri dairələşdirilmiş uzunsov düzbucaqlı, sürtgəcləri isə qayışvari şəkildədirlər. Dən daşlarının məhz belə formaları məlum olduğu kimi, tunc dövrünün sonrakı inkişaf mərhələlərində də qalmışdır. 1927-ci ildə E.Bayburtyan tərəfindən qazıntılar davam etdirilərkən, buradan altı ədəd həvəngdəstə də tapılmışdır [3, s.35].

Kənd təsərrüfatı alətləri ilə yanaşı Elar yaşayış yerindən dulusçuluğun da mövcudluğunu göstərən tapıntılar qeydə alınmışdır. Qara anqoblu enli boğazlı küplər qulplu olub, texniki-morfoloji xüsusiyyətinə görə Şenqavit xarakterli hesab olunur, lakin onlardan fərqli olaraq ornamentsiz olub, basma dairəvi və ya çıxıntılı şəbəkə formalı bəzəklə naxışlanmışdır. Bu mərhələyə aid edilən keramika xaricdən qara, daxildən isə qırmızı rənglə boyanmışdır. Keramika məmulatında müəyyən dərəcədə öncəki keramikanın xüsusiyyətləri hiss olunsa da, keramika istehsalında yeniliklər də meydana çıxmışdır. Bu dövrə aid keramika küpə, kasa, çölmək və digər qabların parçalarından ibarətdir. Saxsı məmulatı içərisində müxtəlif qab altlıqlarına da rast gəlinir ki, onlar da bir neçə forma ilə təmsil olunur. Birinci tip altlıqlar iki kəsik konusun birləşməsini xatırladır. İkinci tip altlıqlar halqaşəkillidir. Bu tip altlıqlara Kür-Araz mədəniyyətinin üçüncü və dördüncü mərhələsində müxtəlif areallarda rastlanmış-

dır. Erkən tunc dövrünün son mərhələsi üçün xarakterik olan bu qablar bikonik formalı olması, ağız kənarının xaricə qatlanması, ağzının altında enli batıq zolağının olması və əvvəlki dövrlərdəki qulplardan fərqli olaraq tədricən yuxarıya doğru qaldırılaraq ağızla gövdəni birbaşa birləşdirən qulplarının olması ilə fərqlənirlər. Bu tip qablarda yarımşarşəkilli qulplar öz yerini halqaşəkilli qulplara vermiş, üzəri yaxşı hamarlanaraq, cilalanmış qablar ortaya çıxmışdır. Bu dövrdə keramika məmulatının istehsalı, onların funksiyası genişlənir. Onları aşağıdakı qruplara bölmək olar: təsərrüfat qabları, mətbəx əşyaları, ocaq qurğuları, incəsənət əşyaları. Bu dövrə aid kasaların qulplu və qulpsuz formaları məlumdur. Bu qabların spesifik cəhətləri gövdələrinin qabarıq, ağızlarının geniş olmasıdır. Ağızlarının formasına görə onları aşağıdakı bir neçə qrupa bölmək olar. Onlar arasında silindrik boğazlı kasalar, konusvari kasalar, ağzı xaricə doğru qatlanmış kasalar, boğma ağızlı kasalar üstünlük təşkil edir. Oxşar keramika nümunələri sonralar Tsovinar(Kolagirən), Armavir(Qurdqulu), Dvin, Qızıl Temir (Voskevaz) və Gexarot(Keşişkənd) ərazilərindən tapılmışdır. Maraqlıdır ki, Martirosyan belə naxışsız və ya az naxışlı keramika kompleksini İqdır (Türkiyə) "gil şəhərciyi" ilə əlaqələndirir [3, s.35].

Qəbir abidələri primitiv daş qutulardan ibarət olub, ölülər böyrü üstə, bükülü vəziyyətdə, təktək dəfn olunmuşdur. Qəbir kamerasında orta ölçülü saxsı qablar küp, bardaq, kasalar və çox az sayda metal əşyalar qoyulmuşdu. 1961-ci il qazıntılarında iki-üç qat tunc məftildən hazırlanmış spiralvari bilərziklər və dörd ədəd xəncər tiyəsi aşkar olunmuşdur. Spiralvari sırğa və bilərziklər, asma üzüklər bu dövrün sinxron abidələrindən də qeydə alınmışdır. Tapıntıları Cənubi Mesopotomiya artefaktları ilə müqayisə edən erməni müəllif Elardan tapılan xəncərlərin təsvirini verərkən, əlacsız qalaraq nəhayət ki, onların Qızıl Vəng xəncərlərinin prototipi olduğunu qeyd edir. Bundan başqa Eların materiallarını Ərzurumda yerləşən Qaraz çoxtəbəqəli yaşayış yerinin tapıntıları ilə birbaşa əlaqələndirir. Belə ki, o, Qarazın qara rəngli keramika və ocaq altlıqlarını Şenqavit və Elar qabları ilə oxşar olduğunu, Qarazın balta və xəncərlərinin Leninakan (Aleksandropol) və Ermənistan Dövlət muzeyində ekspozisiyada nümayiş etdirilən xəncər və baltadan heç fərqlənmədiyini bildirir [3,s.36].

Maraqlıdır ki, Martirosyan Elar xəncərlərini və tiyələrinin daha inkişaf etmiş variantının E.Resler tərəfindən Qarabağda, Arçadzor kəndi yaxınlığındakı Xaçınaget çayı sahilindəki kurqanlardan birindən tapıldığını da etiraf edir [3, s.38].

Nəticə. Ümumiyyətlə Göyçə gölü ətrafında yerləşən abidələr olduqca böyük bir tarixin zəngin tapıntılarıdır. Hansı ki, bu tapıntılar erkən tunc dövrünün istehsal texnikasının ənənələrini özündə əks etdirir. Burada aşkar edilən qəbir kompleksləri Azərbaycanın qədim dövrü üçün səciyyəvi olan mədəniyyət nümunələrini özündə qoruyub saxlayıb.

ƏDƏBİYYAT

1. Кушнарева К.Х. Южный Кавказ в IX-II тыс. до н. э. Санкт-Петербург: Петербургское Востоковедение, 1993, 307 с.
2. Кушнарева К.Х., Чубинишвили Т.Н. Древние культуры Южного Кавказа. (V-III тыс. до Н.Э.). Издательство «Наука» Ленинградское отделение Ленинград, 1970, 190 с.
3. Мартиросян.А.А. Армения в эпоху бронзы и раннего железа. Издательство Академии Наук Армянской ССР, Ереван 1964, с 312.
4. Пиотровский Б.Б. Археология Закавказья. Ленинград: ЛГУ, 1949, 131 с.

ХАГИГАТ МЕХТИЕВА
сотрудник Газахского филиала Бакинского Государственного Университета

ИНДИРА ВЕЛИЙЕВА
сотрудник Газахского филиала Бакинского Государственного Университета

АРХЕОЛОГИЧЕСКИЕ ПАМЯТНИКИ РАННЕГО БРОНЗОВОГО ВЕКА ВОКРУГ ОЗЕРА ГЕЙЧА

В статье упоминаются археологические исследования окрестностей озера Гейча и материалы раскопок, полученные в результате этих исследований. Прокомментированы даже ар-

хеологические памятники вокруг озера Гейча. Были исследованы существующие здесь надгробные памятники и жилые дома.

Ключевые слова: Озеро Гейча, могилы, поселения, Шенгавит, Западный Азербайджан.

HAGIGAT MEHDIYEVA
employee of Gazakh branch of Baku State University

INDIRA VALIYEVA
employee of Gazakh branch of Baku State University

EARLY BRONZE AGE ARCHAEOLOGICAL MONUMENTS AROUND GOYCHA LAKE

In the article, the archaeological research of the surroundings of Goycha Lake and the excavation materials obtained as a result of this research are mentioned. It has even been commented on the archaeological monuments around Goycha. The grave monuments and residences that exist here have been investigated.

Keywords: Lake Goycha, graves, residences, Shengavit, western Azerbaijan.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: p.ü.f.d. Arif Veyisov, t.e.d. Qabil Əliyev.